

# Zviad Kvaçantiradze: Heydər Əliyevin siyasəti Azərbaycanı güclü nəqliyyat dəhlizinə çevirib

**"Azərbaycan xalqı çox xoşbəxtdir ki, tarix ona Heydər Əliyev kimi dünya miqyaslı dahi şəxsiyyət, eləcə də xalqının və dövlətinin qarşısında duran çətinlikləri aradan qaldırmaqla Azərbaycanı qısa bir zamanda hüquqi, dünyəvi, demokratik inkişaf yoluna çıxarmağa qadir olan dövlət başçısı bəxş edib".** Bu sözləri "Xalq qəzeti"nə müsahibəsinin davamında gürcü siyasətçi, 2000–2004-cü illərdə **TRASEKA Hökumətlərarası Komissiyasının birinci katibi vəzifəsində çalışmış Zviad Kvaçantiradze bildirib:**

Azərbaycanda fəaliyyəti dövründə görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevlə bir neçə dəfə görüşdüyünü vurğulayan Kvaçantiradze deyib: "Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçısı, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilirdi. Konfransın yekununda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalandı və Bakı Bəyannaməsi qəbul edildi. Sazişə əsasən, mən Dövlətlərarası Komissiyanın birinci katibi seçildim.

Onun sözlərinə görə, "Əsas Çoxtərəfli Saziş"in müddəalarına uyğun olaraq, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınıb və 2001-ci il fevralın 21-də katibliyin binasının rəsmi açılışı olub. Beləliklə, Azərbaycan tarixi İpək Yolunun bərpa edilməsinə öz töhfəsini verməklə, əsas inkişaf yolunun müəyyənləşdirilməsində Heydər Əliyev mühüm rol oynayıb:

– Məhz həmin katibliyin açılışında mənim ilk dəfə olaraq Heydər Əliyevlə görüşüm oldu. O, öz çıxışında Avropa İttifaqı tərəfindən TRASEKA proqramının həyata keçirilməsi ilə əlaqədar tədbirləri yüksək qiymətləndirdi. Heydər Əliyev çıxışında dedi: "Bizim qonaqlarımız bu binanın gözəlliyi haqqında və indiki vəziyyəti barədə yüksək fikirlər söylədilər. Bu binanın Avropa İttifaqının TRASEKA proqramına və İpək Yolunun bərpası üçün görülən işlərə görə ayrılması təsadüfi deyildir. Bu bina Azərbaycanın, Bakının memarlıq abidələrindən biridir. Vaxtilə, XX əsrin əvvəllərində Azərbaycanın böyük şəxsiyyəti, böyük sahibkarı Hacı Zeynalabdin Tağıyev bu binanı yaradıb və burada da uzun müddət işləyib".

Z.Kvaçantiradze daha sonra deyib:

– Katibliyin açılışından sonra Heydər Əliyev mənimlə yarım saat ərzində qarşıda duran vəzifələr və planlar barədə geniş fikir mübadiləsi apardı. Artıq onun uzaqgörənliyi ilə əldə olunmuş nəticələr öz bəhrəsini verib. Belə ki, Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində bu gün Azərbaycan



güclü nəqliyyat və kommunikasiya dəhlizinə malikdir.

Ulu öndər çox məzmunlu yumor hissinə malik idi. Tanış və hörmət etdiyi insanlara xüsusi diqqət yetirərdi. Mənimlə bu dahi insan həmişə səmimiyyətlə görüşərdi. Heydər Əliyev öz təşəbbüsü ilə başladığı irimiqyaslı işlərə xidmət edən insanlara çox qiymət verərdi. "Xoşbəxtəm ki, mən də həmin insanlar sırasındaydım. Bütün tədbirlərdə mənimlə görüşər, heç zaman diqqətdən kənarda qoymazdı. Yanına çağırar və mənə ata nəvazişi göstərərdi", - deyə Kvaçantiradze vurğulayıb.




Heydər Əliyevin xüsusilə Gürcüstanla münasibətlərə böyük diqqət yetirməsi isə Azərbaycan-Gürcüstan münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına şərait yaratdı. Müdrik və uzaqgörən siyasətçi olan Heydər Əliyev Azərbaycan və gürcü xalqlarının tarixi dostluğuna və mehriban münasibətlərinin daha da inkişafına xidmət edən vacib məqamlara həmişə böyük diqqət yetirib.

Bu il mayın 10-da Azərbaycan xalqı ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illik yubileyini keçirəcək. Mən xoşbəxtəm ki, belə bir şəxsiyyətlə tanış olmuşam. Ümummilli lider Heydər Əliyevin formalaşdırdığı siyasi irs, ata vəsiyyəti Prezident İlham Əliyev tərəfindən layiqincə, şərəflə və inkişaf etdirilməklə həyata keçirilir. Mən Azərbaycan xalqına sülh və əmin-amanlıq arzulayıram. İnanıram ki, Prezident İlham Əliyevin rəhbərliyi və uzaqgörən, məqsədyönlü siyasəti nəticəsində Azərbaycan daha böyük uğurlara imza atacaq".

***Nəriman ƏLİYEV***

Xalq qəzeti.- 2023- cü il.- 14 fevral.- S. 5.